# TEXNOLOGİYA

# 2

DƏRSLİK



# Azərbaycan Respublikasının
# Dövlət Himni

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

**NATİQ AXUNDOV**
**HÜMEYİR ƏHMƏDOV**
**SVETLANA YAHYAYEVA**

# TEXNOLOGİYA

# 2

*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Texnologiya fənni üzrə*

**DƏRSLİK**

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

"ASPOLİQRAF"

# MÜNDƏRİCAT

## 1-ci BÖLMƏ MƏİŞƏT MƏDƏNİYYƏTİ


1. Emal texnologiyaları, materialları və vasitələri ....6
2. Özünəxidmət ....8
3. Bitkilərə qulluq qaydaları ....10
4. Yemək masası arxasında davranış qaydaları ....11
5. Yemək ləvazimatları. Səhər və nahar süfrəsinin tərtibi ....12


## 2-ci BÖLMƏ PLASTİLİNLƏ YAPMA İŞLƏRİ


6. Plastilindən kasanın yapılması ....14
7. Plastilindən yapma bəzəklər. Qızılgül ....16
8. Dartma üsulu ilə yapma. Tısbağa ....18
9. Plastilindən quraşdırma işləri. Pişik ....20


## 3-cü BÖLMƏ APLİKASİYA


10. Kağızı cırma üsulu ilə aplikasiya. Çəməndə göbələk ....23
11. Parçadan aplikasiya. Ördək ....25
12. Həcmli aplikasiya. Pişik ....27
13. Balıq ....28


## 4-cü BÖLMƏ MOZAİKA


14. Kağız parçalarından mozaika. Toplan ....31
15. Günəbaxan tumlarından və düyüdən həcmli mozaika. Qaranquş ....32
16. Karandaş yonqarlarından mozaika. Kirpi ....34
17. Yumurta qabığından həcmli mozaika. Xoruz başı ....35
18. Əzilmiş salfet kağızından mozaika. Qoyun ....36
19. Süngərdən mozaika. Moruq ....38




## 5-ci BÖLMƏ
## KAĞIZQATLAMA, HÖRMƏ, TİKMƏ VƏ NAXIŞTİKMƏ


20. Kvadrat kağızdan fiqurlar. Oriqami. Bayquş fiquru........................41
21. İnsan fiquru.........................................................................................46
22. Kağız zolaqlardan hörmə. Hasar .........................................................47
23. Düz xətt boyunca tikmə.......................................................................51
24. Əyri xətlər boyunca naxıştikmə. Çiçək...............................................54


## 6-cı BÖLMƏ
## MODELLƏŞDİRMƏ


25. Texnoloji maşınlar və vasitələr. Məişət texnikası .............................56
26. Karton qutulardan canavar başı ..........................................................58
27. Kağızdan həcmli dovşan oyuncağı .....................................................60
28. Yük avtomobilinin maketi....................................................................62
Əlavələr .......................................................................................................64
Ülgülər.........................................................................................................65


## Dərslikdə istifadə olunmuş şərti işarələr


fikirləşirik



tapşırığı yerinə yetiririk



nəticə çıxarırıq


## 1-ci BÖLMƏ MƏİŞƏT MƏDƏNİYYƏTİ

# 1. EMAL TEXNOLOGİYALARI, MATERİALLARI VƏ VASİTƏLƏRİ



Şəkillərdə nə görürsünüz?



Məmulatlar nədən hazırlanır?



Materialları nəyin vasitəsilə məmulat halına gətirmək olar?




Bu emal vasitələrilə hansı əməliyyatları yerinə yetirmək olar?





Şəkildə göstərilənləri material və alət kimi qruplaşdırın.

Bu alətlərlə hansı emal texnologiyasının yerinə yetirildiyini deyin.



# 2. ÖZÜNƏXİDMƏT



Özünəxidmət qaydaları nədən ibarətdir?











Sanitariya-gigiyena qaydalarını izah edin.










Siz hansı sanitariya-gigiyena qaydalarına riayət edirsiniz?

# 3. BİTKİLƏRƏ QULLUQ QAYDALARI



Bitkilərə qulluq vasitələri hansılardır?
Təsvir olunan vasitələrdən hansı məqsədlərlə istifadə edilir?



**Susəpən**



**Bel**



**Supüsgürdən**



**Dırmıq**





















Bitkilərin əkilməsi və hazır məhsulun əldə edilməsi ardıcıllığını sadalayın.

# 4.YEMƏK MASASI ARXASINDA DAVRANIŞ QAYDALARI



Yemək masası arxasında davranış qaydaları necə olmalıdır?
Yemək ləvazimatları hansılardır?
Yemək ləvazimatlarından necə istifadə etmək lazımdır?









Masa arxasında düz oturmaq, dirsəkləri bədənə sıxaraq bükmək, əlləri masanın üzərinə qoymaq lazımdır. Masa arxasında çəngəl, bıçaq və qaşıqdan lazımi qaydada istifadə etmək yemək bacarığı və mədəni davranışın əsasıdır.

Yemək zamanı qaşıq sağ əldə tutulur. Çəngəllə yeyilən yeməklərdə çəngəl sol əldə, bıçaq isə sağ əldə tutulur. Ağız və əllər salfetlə silinir. Kağız salfet istifadə edildikdən sonra nimçəyə və ya digər qaba, parça salfet isə masanın üstünə – nimçənin sağ tərəfinə qoyulur. Bütün quru ərzaqlar (çörək, peçenye, suxarı və s.) süfrədən əllə götürülür. Masa arxasından hamı eyni zamanda qalxır. Əgər hamıdan əvvəl qalxmaq vacibdirsə, böyüklərdən icazə almaq yaxşı olar. Masa arxasından qalxarkən yeməyə görə təşəkkür etmək lazımdır.

# 5. YEMƏK LƏVAZİMATLARI. SƏHƏR VƏ NAHAR SÜFRƏSİNİN TƏRTİBİ



Səhər və nahar süfrələrində hansı ləvazimatlardan istifadə olunur?





**Səhər süfrəsi**



**Nahar süfrəsi**



## YAPMANIN TARİXİNDƏN



### BU MARAQLIDIR

Gil – təbii yapma materialıdır.

Çox qədim zamanlarda insan gildən yapma materialı kimi istifadə edib. Gili yoğurub, yayıb, formalaşdırıb, qurudub. İlk mətbəx əşyasını hazırlayıb.

Sonralar dulusçu dəzgahı və gili bişirmək üçün soba kəşf edilib. Qablar sobada bişirilir və üzəri müxtəlif boyalarla bəzədilirdi.

Gildən hazırlanan qablar saxsı qablar adlanır.









## 6. PLASTİLİNDƏN KASANIN YAPILMASI



Plastilin kürəciklərdən nə düzəltmək daha asan olar? Plastilindən kasa düzəldək.



**BİZƏ LAZIMDIR**



*plastilin*



*plastilin bıçağı*



*altlıq*

### I üsul



1. Plastilindən kürəcik düzəldin. Baş barmaqla kürəciyin ortasını sıxın və dairə şəklində yayın.



2. Yayılmış dairənin kənarlarını yastılayıb böyüdün və kasa şəklinə salın.



## II üsul



1. Plastilindən böyük və kiçik kürəciklər düzəldin. Kiçik kürəciyin ortasını baş barmaqla sıxın və dairə şəklində yastılayın.



2. Böyük kürəcikdən uzun bağ yapın və dairə boyu spiral şəklində dolayın.



3. Bağların birləşmə yerini hamarlayın.





Kasa hazırdır.

**Plastilinlə işlədikdən sonra əllər mütləq yuyulmalıdır!**

# 7. PLASTİLİNDƏN YAPMA BƏZƏKLƏR. QIZILGÜL



Fiqurlardan bəzək kimi necə istifadə etmək olar?





Bu fiqurları necə yapmaq olar?





Onlardan naxış kimi istifadə etmək olarmı?

**Plastilinlə işlədikdən sonra əllər mütləq yuyulmalıdır!**

Plastilindən gül düzəldək.



**BİZƏ LAZIMDIR**



*plastilin*



*plastilin bıçağı*



*altlıq*



*taxta çubuq*



1. Gülün gövdəsi üçün taxta çubuğa yaşıl plastilin təbəqə çəkin. Ləçəklər üçün kiçik kürəciklər düzəldin. Kürəcikləri yastılayın.



2. Gülün ləçəklərini çubuğa dolayın. Yaşıl plastilindən yastı hissələr düzəldin və gülün altına bərkidin.



3. Gülün yarpaqlarını düzəldin və çubuğa bərkidin.





Gül hazırdır.



# 8. DARTMA ÜSULU İLƏ YAPMA. TISBAĞA



Tısbağanın pəncələri, filin xortumu, timsahın gövdəsi necə hazırlanıb?

Bu fiqurların hazırlanmasında daha hansı üsullardan (müxtəlif hissələrdən quraşdırma, kəsmə, yapma bəzəklər) istifadə olunub?





Plastilindən tısbağa düzəldək.



**BİZƏ LAZIMDIR**



*plastilin*



*plastilin bıçağı*



*altlıq*



1. Plastilindən kürəcik düzəldin və onu çanaq formasına salın.





2. Kiçik kürəciklər düzəldin, yastıladın, çanağın üzərinə bərkidin.



3. Tısbağanın başını, pəncələrini və quyruğunu düzəldin.



4. Gözlərini düzəldin və başa yapışdırın. Hissələri çanağa birləşdirin və üz cizgilərini çəkin.





Tısbağa hazırdır.



**Plastilinlə işlədikdən sonra əllər mütləq yuyulmalıdır!**

# 9. PLASTİLİNDƏN QURAŞDIRMA İŞLƏRİ. PİŞİK



Plastilindən ən çox düzəltdiyiniz fiqur hansıdır?

Kəsmə, yayma, dartma kimi emal növlərindən və bəzəklərdən istifadə edərək müxtəlif heyvan və quş fiqurları hazırlamaq olar.



***Pişik***



***İt***



***Qurbağa***



***Ördək***

Plastilindən pişik düzəldək.



**BİZƏ LAZIMDIR**



*plastilin*



*plastilin bıçağı*



*altlıq*



1. Gövdəyə quyruq və pəncə hissələrini birləşdirin.



2. Baş üçün kürəcik, qulaqlar üçün iki konus, göz üçün kiçik yastı dairələr, burun və ağız düzəldin. Pişiyin başını formalaşdırın.



3. Başı gövdəyə birləşdirin və bıçaqla caynaqların izini çəkin.





Pişik hazırdır.



**Plastilinlə işlədikdən sonra əllər mütləq yuyulmalıdır!**



# APLİKASİYANIN TARİXİNDƏN



## BU MARAQLIDIR

Qədim zamanlarda insanlar ev əşyalarını, geyimlərini və yaşayış yerlərini bəzək elementləri ilə bəzəyirdilər. Bu bəzəmə üsulu aplikasiya adlanır. Aplikasiya üçün əsas material heyvan dərisi və yun idi.

**Aplikasiya** (latın dilindən “applicatio” – yapışdırma) bəzəyin təmələ yapışdırılması və ya tikilməsidir. Aplikasiyada dəri, keçə, xəz, parça, təbiət materialları və kağızdan istifadə olunur.







## 10. KAĞIZI CIRMA ÜSULU İLƏ APLİKASİYA. ÇƏMƏNDƏ GÖBƏLƏK

**Cırma aplikasiyası** kağızı çəkilmiş xətt boyunca cırıb təmələ yapışdırmaqla əldə edilir.



Cırma zamanı barmaqlar necə tutulmalıdır?




Kağızın çəkilmiş xətt boyunca cırılması, ləçəklərin və yarpaqların şəkilləndirilməsi.



Cırma üsulu ilə budaq aplikasiyasını necə hazırlamaq olar?





Çiçəkli budaq hazırdır.



Çəməndə göbələk aplikasiyası hazırlayaq.



**BİZƏ LAZIMDIR**






1. Təməl üzərinə göbələk və çəmən konturunu çəkin. Sarı, qırmızı, ağ və yaşıl kağızlardan hissələr cırın. Sarı hissələri göbələyin gövdəsinə yapışdırın.



2. Qırmızı və ağ kağızlarla göbələyin papağını, yaşıl kağızlarla isə çəməni hazırlayın.





Çəməndə göbələk hazırdır.



# 11. PARÇADAN APLİKASİYA. ÖRDƏK



Parçadan daha hansı aplikasiyaları hazırlamaq olar? Parçadan ördək aplikasiyası düzəldək.








1. Ördəyi təmələ və ağ kağıza köçürün (səh. 65).




2. Ağ kağızdakı ördəyin dimdiyini və pəncələrini gövdədən ayırın.



3. Gövdəni sarı, dimdiyi və pəncələri isə qırmızı parçadan kəsin və təmələ yapışdırın.









4. Ördəyin gözünü çəkin və kəsib yapışdırın.









Ördək hazırdır.

# 12. HƏCMLİ APLİKASİYA. PİŞİK

Pişik fiqurunda neçə detal var?

Pişik düzəldək.



**BİZƏ LAZIMDIR**




1. Təməldə pişiyin konturunu çəkin.
2. Salfet kağızından borucuqlar hazırlayın və burun.



3. Bağları pişiyin konturuna yapışdırın və üz cizgilərini çəkin.





Pişik aplikasiyası hazırdır.

# 13. BALIQ



Hansı rəngdə balıq aplikasiyası hazırlamaq istəyərdiniz?

Balıq aplikasiyası hazırlayaq.








1. Balığın konturunu (səh. 66) sarı kağıza köçürün. Balığın başını, üzgəclərini, pulcuqlarını çəkin.







2. Balığı kəsin. Üzgəcləri xətlər üzrə kəsin.



3. Kəsilmiş hissələri karandaşla burun və balığı təmələ yapışdırın.






Balıq hazırdır.





# MOZAİKANIN TARİXİNDƏN



## BU MARAQLIDIR

**Mozaika** – bir və ya bir neçə material hissələrindən (daş, şüşə, taxta) hazırlanmış təsvirdir. Qədim Romada insanlar öz evlərinin döşəmələrini və divarlarını rəngli daş lövhələrlə bəzəyirdilər. Lövhələr müxtəlif rəngli şüşə və daş hissələrindən ibarət ola bilərdi. Qırıntılar hamar olmayan səthlər yaradırdı. Bu səthə işıq şüaları düşəndə qırıntılar parıldayırdı.







## 14. KAĞIZ PARÇALARINDAN MOZAİKA. TOPLAN



Mozaika nədən hazırlanır?

Toplan mozaikası hazırlayaq.



**BİZƏ LAZIMDIR**




təməl, kalka, rəngli kağızlar, yapışqan və fırça, karandaş, köçürmə kağızı



1. Toplanın konturunu təmələ köçürün (səh. 67). Sarı, qəhvəyi kağızları əlinizlə kiçik hissələrə bölün və yapışdırın.






Toplan hazırdır.



# 15. GÜNƏBAXAN TUMLARINDAN VƏ DÜYÜDƏN HƏCMLİ MOZAİKA. QARANQUŞ



Qaranquş mozaikasını necə hazırlamaq olar?

Qaranquş mozaikası hazırlayaq.








1. Qaranquşun konturunu (səh. 68) təmələ köçürün və gözünü çəkin.



2. Qaranquşun quyruq, qanad və baş hissələrinə yapışqan yaxın.



3. Yapışqan yaxılmış hissələrə günəbaxan toxumu düzün.



4. Qaranquşun sinə və qarın hissələrinə yapışqan yaxın və düyü dənələri düzün. Dimdiyini rəngləyin.





Qaranquş hazırdır.



# 16. KARANDAŞ YONQARLARINDAN MOZAİKA. KİRPİ



Kirpi üçün daha hansı rəngi seçmək istəyirsiniz?

**BİZƏ LAZIMDIR**




Kirpi mozaikası düzəldək.



1. Kirpinin konturunu (səh. 69) təmələ köçürün və üz cizgilərini çəkin.



2. Kirpi təsvirinə yapışqan sürtün və karandaş yonqarlarını yapışdırın.






Kirpi hazırdır.



# 17. YUMURTA QABIĞINDAN HƏCMLİ MOZAİKA. XORUZ BAŞI



Yumurta qabığından daha nə düzəltmək olar?

Xoruz başı mozaikası düzəldək.



**BİZƏ LAZIMDIR**



plastilin



plastilin bıçağı



yumurta qabıqları



yoğurt qabı



Yoğurt qabının səthinə plastilin çəkin və üzərinə yumurta qabıqları yapışdırın. Xoruzun pipiyini, saqqalını, dimdiyini və gözlərini düzəldin.





Xoruz başı hazırdır.



# 18. ƏZİLMİŞ SALFET KAĞIZINDAN MOZAİKA. QOYUN

Qoyun mozaikası nədən hazırlanıb?

Qoyun mozaikası düzəldək.



**BİZƏ LAZIMDIR**




1. Qoyun təsvirini (səh. 70) təmələ köçürün.





2. Salfet kağızlarından kiçik hissələr kəsin və yumrulayın.



3. Qoyunun buynuzlarını, dırnaqlarını və qulaqlarını rəngləyin. Gövdəyə və başa yapışqan sürtüb salfet kürəciklərini yapışdırın.








Qoyun hazırdır.



# 19. SÜNGƏRDƏN MOZAİKA. MORUQ



Moruq hansı materialdan hazırlanıb?

Süngərdən moruq hazırlayaq.



**BİZƏ LAZIMDIR**






1. Kağız üzərində yarpaq şəkli çəkin və kəsin.



2. Süngərdən kiçik hissələr kəsin.



3. Yarpağa yapışqan yaxın və bişmiş yumurtanın enli hissəsinə yapışdırın.




4. Süngər hissələrinə yapışqan yaxın və yumurtaya yapışdırın.





Moruq hazırdır.





# KAĞIZQATLAMANIN TARİXİNDƏN



## BU MARAQLIDIR

Kağızqatlamanın tarixi kağızın kəşfindən başlayır.

İlk dəfə Yaponiyada kağızı qatlamaqla bədii məmulatlar hazırlanıb. Kağız fiqurlardan bayramlarda və şənliklərdə geniş istifadə edilib.

Yaponiyada "Qızlar günü"ndə (Kukla bayramı – 3 mart) imperatorun, "Oğlanlar günü"ndə isə (5 may) karp balığının kağız fiquru nümayiş etdirilir.







*karp balığı*



*imperator*

## 20. KVADRAT KAĞIZDAN FİQURLAR. ORİQAMİ. BAYQUŞ FİQURU

Qatlamada istifadə olunan üsullar və şərti işarələr:



*"Dərə" qatlaması*



*"Dağ" qatlaması*



*"Bükmə" qatlaması*



*Digər tərəfə çevirmə*



*Daxilə qatlama*



*Xaricə qatlama*



Kvadrat kağızdan bayquş fiqurunu necə hazırlamaq olar?

Bayquş düzəldək.



**BİZƏ LAZIMDIR**



rəngli kağızlar

Kvadrat kağızdan bayquş fiqurunun hazırlanma ardıcıllığı:






Bayquş hazırdır.



Kvadrat kağızdan daha hansı fiqurları düzəltmək olar ?



Tutuquşu düzəldək.



**BİZƏ LAZIMDIR**



rəngli kağızlar



flomasterlər

Kvadrat kağızdan tutuquşu fiqurunun hazırlanma ardıcıllığı:









Tutuquşu hazırdır.





Qayıq düzəldək.



**BİZƏ LAZIMDIR**



rəngli kağızlar

Kvadrat kağızdan qayıq fiqurunun hazırlanma ardıcıllığı:






Qayıq hazırdır.





# HÖRMƏ



## BU MARAQLIDIR

Hörmə insanların ən qədim kəşflərindən biridir. Şəkillərdəki əşyalara diqqət yetirin və onların adını söyləyin.









# 21. İNSAN FİQURU



Hörmədə hansı rəngli iplərə üstünlük verirsiniz?



Dördrəngli ipi bağlayıb yapışqanlı lentlə təmələ bərkidin. Unutmayın, kəsişmə zamanı sağ ip üstə düşməlidir.

**BİZƏ LAZIMDIR**








İnsan fiqurunu hansı materiallardan hörmək olar?



# 22. KAĞIZ ZOLAQLARDAN HÖRMƏ. HASAR



Nişanlamanı necə aparmaq olar?

Kağız zolaqlarının necə nişanlanmasına baxaq.





Belə hörmə şahmat hörməsi adlanır. Nə üçün?
Bu işi hansı kağızla yerinə yetirmək olar?



Kağız zolaqlardan düzbucaqlı, kvadrat naxışlar hörmək olar.



Nişanlamanı necə aparmaq haqqında fikirləşin.

Seçilən şəkil üçün lazım olan qədər zolaq hazırlanır. Bütün zolaqların eyni ölçüdə olmasına diqqət yetirmək lazımdır. Zolaqlardan hörülən şəklin arxa tərəfi təmələ yapışdırılır.















Hasarı hörərkən əsas tikinti materialı kimi nədən istifadə edilir?

Kağız zolaqlardan hasar hörək.



**BİZƏ LAZIMDIR**



rəngli kağızlar



qayçı



karandaş



xətkeş



1. Yaşıl kağız üzərində zolaqlar nişanlayın və kəsin.



2. Sarı kağız üzərində zolaqlar nişanlayın və kəsin.



3. Sarı zolaqlardan arakəsmələr qoyaraq kağızdan hasar hörün.





Hasar hazırdır.



Bu hörmə üsulundan istifadə edərək kitab üçün əlfəcin də hörmək olar.



# 23. DÜZ XƏTT BOYUNCA TİKMƏ

Tikmə və naxıştikmə  ləvazimatları:



*Xətkeş*



*Santimetr lenti*



*Karandaş*



*Qayçı*



*Sap*



*İynə*



*Oymaq (üskük)*



*Kərgah**



*Üçbucaq xətkeş*



*Köçürmə kağızı*



*Parça*

---

Kərgah* – *naxıştikmə zamanı parçanı bərkitmək və dartmaq  üçün xüsusi tərtibat*



Düz xətt boyunca tikmə necə yerinə yetirilir?

**BİZƏ LAZIMDIR**




Düz xətt boyunca tikək.



1. Tikişlərin uzunluğunu nişanlayın. İlmələrin başlanğıc və son nöqtələrini qeyd edin.






2. İynəni parçanın tərs üzündən salın, iynəqabağı tikiş üsulu ilə parçanı nöqtələr boyunca tikin və sapı dartın.



3. Parçanın tərs üzündə  sapı bərkidin.





Düz xətt boyunca iynəqabağı tikiş hazırdır.



İynəqabağı tikişdən istifadə edərək parçaya naxış salmaq olar.



# 24. ƏYRİ XƏTLƏR BOYUNCA NAXIŞTİKMƏ. ÇİÇƏK



Çiçəyin konturunu parça üzərinə hansı üsulla köçürmək olar?

Çiçək naxışı salaq.



**BİZƏ LAZIMDIR**






1. Çiçəyin konturunu (səh. 71) ağ kağıza köçürün, kəsin və parça üzərinə qoyub nişanlayın.



2. Çiçəyin kənarlarını tikin.





3. Çiçəyin yarpağını, saplağını və gövdəsini tikin.







Çiçək hazırdır.

## 25. TEXNOLOJİ MAŞINLAR VƏ VASİTƏLƏR. MƏİŞƏT TEXNİKASI



1. Hansı nəqliyyat vasitələrini tanıyırsınız?







2. Hansı yükdaşıma vasitələrini tanıyırsınız?







3. Hansı məişət texnikasını tanıyırsınız?











4. Hansı əl alətlərini tanıyırsınız? Göstərilən alətlərlə hansı işlər yerinə yetirilir?



5. Hansı elektrik alətlərini tanıyırsınız? Bu alətlər hansı işləri görür?



# 26. KARTON QUTULARDAN CANAVAR BAŞI



Qutulardan daha hansı oyuncaqlar düzəltmək olar?

Canavar başı düzəldək.



**BİZƏ LAZIMDIR**






1. Qutulara kağız yapışdırın.




2. Canavarın qulaqlarını, dilini nişanlayın və kəsin. Burnu üçün plastilindən kürəcik düzəldin.



3. Canavarın  dişlərini, gözlərini, qaşlarını çəkin, rəngləyin və kəsin.





4. Canavarın başını formalaşdırın.






Canavar başı hazırdır.



# 27. KAĞIZDAN HƏCMLİ DOVŞAN OYUNCAĞI



Kağızdan başqa nə düzəldə bilərsiniz?




Dovşan düzəldək.





1. Uzunluğu 30 sm, eni 2 sm olan kağız zolağı nişanlayın və kəsin.



2. Zolağı qatlayaraq dovşanın başını, qabaq və arxa pəncələrini formalaşdırın və qat yerlərini sancaqlayın.



3. Zolağı qatlayıb sancaqlamaqla dovşanın quyruğunu düzəldin və sancaqları bir-bir çıxarıb birləşmə yerlərini yapışdırın.




4. Dovşanın qulaqlarında və pəncələrində qayçı ilə yarıqlar kəsin və üz cizgilərini çəkin.





Dovşan hazırdır.



# 28. YÜK AVTOMOBİLİNİN MAKETİ

Təyinatına görə hansı avtomobilləri tanıyırsınız?

Yük avtomobili düzəldək.



**BİZƏ LAZIMDIR**




1. Bir kibrit qutusunun iç hissəsini o biri kibrit qutusuna yapışdırın.



2. Zolaq kəsin və qutuların kənarına yapışdırın.



3. Üçüncü kibrit qutusunun iç hissəsini yük yerinə, kibrit qutusunun üz hissəsini isə ağ kağızla üzləyib kabinə yerinə yapışdırın.



4. Kabinəyə ağ kağız yapışdırın və fənərləri flomasterlə çəkin. Təkər yerlərinə plastilin yaxın və düymələri (təkərləri) plastilinə yapışdırın.



5. Qırmızı kağızdan kiçik dairələr kəsin və təkərlərin ortasına yapışdırın.






Yük avtomobili hazırdır.



## QAYÇI İLƏ İŞLƏMƏ ZAMANI TƏHLÜKƏSİZLİK TEXNİKASI QAYDALARI

1. Qayçını göstərilən yerdə (qayçı üçün qabda və ya qutuda) qaydalarla müəyyən olunmuş vəziyyətdə saxlayın.
2. Küt və bərkitməsi boşalmış qayçı ilə işləməyin.
3. Qayçının kəsən hissələrini yuxarı tutmayın.
4. Qayçının kəsən hissələrini açıq qoymayın.
5. Qayçı ilə oturub işləyin.
6. Qayçı ilə iş zamanı yoldaşınıza yaxınlaşmayın.
7. Bağlı qayçını üzükləri irəli olmaqla ötürün.
8. İş zamanı materialı sol əllə elə saxlayın ki, barmaqlar qayçının kəsən hissəsindən kənarda olsun.





## PLASTİLİNLƏ İŞ ZAMANI SANİTARİYA VƏ GİGİYENA QAYDALARI

1. Plastilinlə işlədikdən sonra əllər mütləq yuyulmalıdır!

## YAPIŞQANLA İŞLƏMƏ ZAMANI TƏHLÜKƏSİZLİK TEXNİKASI QAYDALARI

1. Yapışqanla ehtiyatla davranın. Yapışqan zəhərlidir!
2. Yapışqanı məmulatın səthinə yalnız fırça ilə sürtün.
3. Yapışqanın barmaqlara, sifətə, xüsusilə gözlərə düşməsi təhlükəlidir.
4. Yapışqanın gözlərə düşməsi zamanı onları çoxlu miqdarda su ilə yuyun.
5. İşi qurtardıqdan sonra mütləq əlləri və fırçanı yuyun.
6. Yapışqanla işlədikdə salfetdən istifadə edin.

## İYNƏ İLƏ İŞLƏMƏ ZAMANI TƏHLÜKƏSİZLİK TEXNİKASI QAYDALARI

1. İynələri müəyyən olunmuş yerdə (xüsusi qutuda, iynəqabında) saxlamaq lazımdır.
2. İynəni ağıza almaq, paltarın yaxasına sancmaq qadağandır.
3. Barmağı zədələməmək üçün oymaqla (üsküklə) işləyin.

















**BURAXILIŞ MƏLUMATI**

**TEXNOLOGİYA 2**
*Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün*
*Texnologiya fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Natiq Lyutfiq oğlu Axundov**<br>**Hümeyir Hüseyn oğlu Əhmədov**<br>**Svetlana İslam qızı Yahyayeva** |
| Redaktor | **Sevinc Nuruqızı** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizayner və rəssam | **Əmiraslan Zaliyev** |
| Korrektor | **Günel Məmmədova** |

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi** ***(qrif nömrəsi: 2021–018)***

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,1. Fiziki çap vərəqi 9,0. Formatı 57x82 $^1/_8$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 72.
Şriftin adı və ölçüsü: məktəb qarnituru, 14–16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş 55. Tiraj 167182. Pulsuz. Bakı–2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 09.07.2021**

Nəşriyyat:
**“Aspoliqraf LTD” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 151)

Çap məhsulunu istehsal edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

**PULSUZ**

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

